## KİTABXANAŞÜNASLIQ

**Sevda Abasqulu qızı Xələfova**
***Bakı Dövlət Universiteti***
***Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent***
*sevdakhalafova@bsu.edu.az*

*UDC 027.54*

# KİTABXANALAR VƏ QARABAĞ ZƏFƏRİNİN TƏBLİĞİ
## (Azərbaycan Milli Kitabxanasının materilları əsasında)

***Xülasə:*** *Mirzə Fətəli Axundzadə adına Azərbaycan Milli Kitabxanası dünyada ən böyük milli kitabxanalardan biridir. Bu kitabxana ölkəmizdə kitabxana işi sahəsində dövlət siyasətini həyata keçirən, Azərbaycan və xarici dillərdə çap olunmuş məlumat daşıyıcılannı toplayıb mühafizə edən milli mədəniyyət xəzinəsi və dövlət kitabsaxlayıcısıdır. Hazırda Azərbaycanın Azərbaycan Milli Kitabxanasının fondunda saxlanılan nəşrlərin sayı 5 milyon nüsxədən artıqdır.*

*Yeni növ koronavirus - COVİD-19 pandemiyası dünyada geniş yayıldığına görə Milli Kitabxana 2020-ci il mart ayının 11-dən 2021-ci ilin oktyabr ayına kimi öz fəaliyyətini onlayn rejimdə davam etdirmişdir. Zəngin elektron resurslara, elektron kataloqa və dünya kitabxanalarına ingteqrasiyaya malik olması Milli Kitabxananın səmərəli işləməsinə imkan yaratmışdır.*

*Məqalədə qeyd olunduğu kimi, 2020-ci il sentyabrın 27-dən noyabrın 9-dək davam etmiş 44 günlük Vətən müharibəsində Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Azərbaycan Ordusu erməni işğalı altında olan Qarabağ bölgəsini və ətraf rayonları düşməndən azad etmiş, bu şərəfli hadisə xalqımızın tarixinə qızıl hərflərlə yazılmışdır.*

*Müharibə zamanı erməni işğalçılarına qarşı qəhrəmancasına döyüşən Azərbaycan əsgərlərinə həsr olunmuş çoxsaylı elektron məlumat bazalarının və virtual sərgilərin hazırlanması Milli Kitabxananın fəaliyyətində mühüm yer tutur. Bununla yanaşı, Qarabağ mövzusunda hazırlanan elektron məlumat bazalarında görkəmli şəxsiyyətlərin həyat və yaradıcılığına dair tam mətnli resurslar, rəsmi sənədlər, fotoşəkillər, yaddaqalan materiallar toplanmışdır.*

***Açar sözlər:*** *Azərbaycan Milli Kitabxanası, koronavirus - COVİD-19 pandemiyası, Qarabağ müharibəsi, 44 günlük Vətən müharibəsi, erməni işğalı, Azərbaycan Ordusu, elektron məlumat bazaları.*

**Sevda Abasgulu gizi Khalafova**

**Libraries and propaganda of the Karabakh Victory
(Based on the materials of the National Library of Azerbaijan)**

***Summary:*** *The National Library of Azerbaijan named after Mirza Fatali Akhundzadeh is one of the largest well-known libraries in the world. The National Library is a treasury of national culture and a state book depository. At present, the fund of the National Library of Azerbaijan has more than 5 million copies of literature.*

*Due to the spread of a new type of coronavirus in the world - the COVID-19 pandemic, the National Library continued its online activities from March 11, 2020 to October 2021. The presence of a sufficient number of electronic resources, electronic catalogs and integration with world libraries allowed him to work effectively.*

*As noted in the article, during the 44-day Patriotic War, which lasted from September 27 to November 9, 2020, the victorious Azerbaijani Army, led by President, Supreme Commander-in-Chief Ilham Aliyev, liberated the Karabakh region occupied by Armenia and the surrounding areas from the enemy. This is a glorious event inscribed in golden letters in the history of our people.*

*An important role in the activities of the National Library is played by the preparation of numerous electronic databases and virtual exhibitions dedicated to Azerbaijani soldiers who heroically fought against the Armenian aggressors during the war. In addition, electronic databases prepared on the Karabakh issue contain full-text resources, official documents, photographs, memorable materials about the life and work of prominent personalities.*

***Key words:*** *National Library of Azerbaijan, coronavirus - COVID-19 pandemic, Karabakh war, 44-day Patriotic War, Armenian occupation, Azerbaijani army, electronic databases.*

**Севда Абасгулу кызы Халафова**

**Библиотеки и пропаганда Карабахской Победы
(по материалам Национальной библиотеки Азербайджана)**

***Резюме:*** *Национальная библиотека Азербайджана имени Мирзы Фатали Ахундзаде является одной из крупнейших известных библиотек мира. Национальная библиотека является сокровищницей национальной культуры и государственным книгохранилищем. В настоящее время фонд Национальной библиотеки Азербайджана насчитывает более 5 миллионов экземпляров литературы.*

*В связи с распространением в мире коронавируса нового типа - пандемии COVID-19, Национальная библиотека с 11 марта 2020 г. по октябрь 2021 г. продолжила свою деятельность в режиме онлайн. Наличие достаточного количества электронных ресурсов, электронных каталогов и интеграции с мировыми библиотеками позволили ему эффективно работать.*

*Как отмечается в статье, в ходе 44-дневной Отечественной войны, длившейся с 27 сентября по 9 ноября 2020 года, победоносная Азербайджанская Армия во главе с Президентом, Верховным Главнокомандующим Ильхамом Алиевым освободила оккупированный Арменией Карабахский регион. и прилегающих территорий от противника. Это славное событие, вписанное золотыми буквами в историю нашего народа.*

*Важную роль в деятельности Национальной библиотеки играет подготовка многочисленных электронных баз данных и виртуальных выставок, посвященных азербайджанским воинам, героически сражавшимся против армянских агрессоров в годы войны. Кроме того, электронные базы данных, подготовленные по карабахской проблеме, содержат полнотекстовые ресурсы, официальные документы, фотографии, памятные материалы о жизни и деятельности выдающихся личностей.*

***Ключевые слова:*** *Национальная библиотека Азербайджана, коронавирус - пандемия COVID-19, Карабахская война, 44-дневная Отечественная война, армянская оккупация, азербайджанская армия, электронные базы данных.*

Azərbaycan Milli Kitabxanası dünyanı cənginə alan yeni növ koronavirus - COVİD-19 pandemiyasının səbəbindən 2020-ci il mart ayının 11-dən 2021-ci ilin oktyabr ayına kimi öz fəaliyyətini onlayn rejimdə davam etdirmişdir. Bu dövrdə Milli Kitabxana istər ölkədaxili, istərsə də dünya miqyasında keçirilən onlayn tədbirlərin iştirakçısı olmuşdur. Kitabxana-informasiya xidmətinin tam elektronlaşdırılması, istər kitab fonduna, istərsə dövri mətbuatın arxiv bazasına görə respublikada yeganə kitabxana olması Milli Kitabxananın yaranmış çətin vəziyyətdən çıxmasında əsas rol oynamışdır.

Azərbaycan dövlətinin qlobal koronavirus pandemiyasının fəsadlarının qarşısının alınmasına yönəldilmiş kompleks tədbirləri sırasında əhalinin maarifləndirilməsi tədbirləri prioritet istiqamət təşkil etmişdir. Pandemiya şəraitində Milli Kitabxananın fəaliyyəti kitabxananın elektron xidmətlərinin, elektron kataloq və elektron kitabxanasının daha da təkmilləşdirilməsinə və inkişaf etdirilməsinə əhəmiyyətli təkan vernişdir [1, s. 99].

2020-ci il sentyabrın 27-dən noyabrın 9-dək davam etmiş 44 günlük Vətən müharibəsində Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Azərbaycan Ordusu erməni işğalı altında olan Qarabağ bölgəsini və ətraf rayonları düşməndən azad etməsi xalqımızın tarixinə qızıl hərflərlə yazıldı.

Müstəqil dövlətimizin suverenliyi və ölkəmizin ərazi bütövlüyü üçün tarixi əhəmiyyət kəsb edən dövrdə Azərbaycan Milli Kitabxanası müzəffər ordumuzun zəfər yürüşünə dəstək olaraq cəmiyyətdə vətənpərvərlik ruhunun yüksəldilməsi, uzun illər işğal altında qalan, dağıdılıb talan edilən tarixi-mədəni irsimizin dünyaya tanıdılması məqsədilə öz informasiya resurslarını maksimum dərəcədə istifadəçilərə yaxınlaşdırmaq üçün böyük səy göstərdi.

Vətən müharibəsi günlərində onlayn rejimdə fəaliyyət göstən Milli Kitabxana qələbə ruhunda olan resurslarla xalqımızı Qələbəyə inama, Zəfər yürüşünə hazırlamağı bacardı. Milli Kitabxananın direktoru, professor Kərim Tahirov "Azərbaycan" qəzetinin 5 noyabr 2020-ci il tarixli sayında çıxan "Haqq savaşında tam qələbəmiz uzaqda deyil" adlı məqaləsində Azərbaycandakı birlik və vətənpərvərliyi, eləcə də bütün xalqın Ali Baş Komandanın ətrafında sıx

birləşməsini Vətən müharibəsində Müzəffər Azərbaycan Ordusunun qələbəsinin başlıca səbəbi kimi dəyərləndirir, bu müharibəni xalqımızın haqq savaşı adlandırırdı.

Milli Kitabxana Müzəffər Ordumuzun Zəfər yürüşünə dəstək olaraq Azərbaycan və ingilis dillərində tariximizə, mədəniyyətimizə, Dağlıq Qarabağ məsələsinə və digər mühüm sahələrə dair virtual sərgilər, elektron məlumat bazaları hazırlayır, bütün dünyaya yayımlayırdı. Azərbaycanın, Qarabağın, Şuşanın tarixini, mədəniyyətini tanıtmaq məqsədilə bu elektron resurların mühüm əhəmiyyəti var idi. Keçirilən tədbirlərin məqsədi cəmiyyətdə vətənpərvətlik ruhunu yüksəltməki, uzun illər işğal altında qalan, dağıdılıb talan edilən tarixi-mədəni irsimizi dünyaya tanıtmaq idi.

Kitabxananın direktor müavini Ədibə İsmayılova "Azərbaycan" qəzetinin 2020-ci il 1 noyabr sayında dərc olunan "Kitabxanaçı əməyi-vətənpərvərlik ruhu" adlı məqaləsində qeyd edir ki, Milli Kitabxana müstəqil dövlətimizin suverenliyi və ölkəmizin ərazi bütövlüyü üçün tarixi əhəmiyyət kəsb edən mühüm işlər görür. Belə ki, kitabxana müzəffər ordumuzun zəfər yürüşünə dəstək olaraq tariximizə, mədəniyyətimizə, Dağlıq Qarabağ məsələsinə və digər mühüm sahələrə dair elektron virtual sərgilər, elektron məlumat bazaları hazırlayaraq bütün dünyaya yayımlayır. Görülən tədbirlərin məqsədi cəmiyyətdə vətənpərvərlik ruhunun yüksəldilməsi, uzun illər işğal altında qalan, dağıdılıb talan edilən tarixi-mədəni irsimizin dünyaya tanıdılmasıdır.

Məqalədə həmçinin qeyd edilir ki, erməni qəsbkarlarına qarşı ölüm-dirim savaşında həlak olmuş qəhrəmanlarımızın ibrətamiz həyatı, şəxsi nümunəsi, kitabxananın əməkdaşları tərəfindən hazırlanan elektron məlumat bazalarının, virtual sərgilərin əsas mövzusuna çevrilib. Milli Kitabxana Vətən uğrunda döyüşən, şəhid olan döyüşçülərimizi tanıtmaq və unutdurmamaq üçün hərbi-vətənpərvərlik mövzusunda hazırladığı "Zəfərlərin mübarək, Azərbaycan əsgəri!", "Vətənimdir Azərbaycan", "Qarabağ müharibəsi", "Xocalı", "Aprel döyüşləri bizim şanlı qələbəmizdir", "Azərbaycanın Milli Qəhrəmanları", "26 iyun Milli Ordu günüdür", "Azərbaycan əsgəri", "Qarabağ müharibəsi", "Qarabağ - Şuşa həsrəti", "Qarabağın incisi - Şuşa" adlı elektron məlumat bazalarını onlayn rejimdə istifadəçilərə təqdim etmişdir [1, s. 21-22].

Kitabxanada Qarabağ mövzusu ilə əlaqədar Qarabağın görkəmli şəxsiyyətlərinə həsr olunan elektron məlumat bazaları da mühüm əhəmiyyət kəsb edir. Məlumat bazalarında Qarabağın görkəmli şəxsiyyətlərinin həyat və fəaliyyətinə, yaradıcılığına dair tammətnli resurslar, rəsmi sənədlər, fotolar, onların xatirəsinin əbədiləşdirilməsi ilə əlaqədar materiallar təqdim olunur. "Üzeyir Hacıbəyli", "Əbədiyaşar sənətkar Bülbül", "Əbdürrəhim bəy Haqverdiyev – 150", "Əhməd bəy Ağaoğlu – 150", "Molla Pənah Vaqif" və digər görkəmli şəxsiyyətlərə dair elektron məlumat bazaları hazırlanaraq onlayn rejimdə oxuculara təqdim olunub. Vətən müharibəsinin davam etdiyi ağır günlərdə Milli Kitabxananın əməkdaşları tərəfindən Qarabağın tarixini, mədəniyyətini, Qarabağ həqiqətlərini özündə əks etdirən Azərbaycan və ingilis dillərində virtual





sərgilər hazırlanaraq dünyaya yayımlanmışdır. Bu baxımdan "Qarabağ Azərbaycandır!", "Qarabağ abidələri", "Qarabağ xalq sənətkarlığı", "Qarabağ geyimləri", "Qarabağ xalçaları" adlı virtual sərgilər xüsusi əhəmiyyət kəsb edir. Eləcə də, kitabxananın elektron kataloqunda müvafiq mövzu üzrə axtarışı sürətləndirmək məqsədilə müharibə ilə bağlı – "II Qarabağ Müharibəsi", "II Qarabağ Müharibəsi beynəlxalq aləmdə", "II Qarabağ Müharibəsi – döyüşçülər", "II Qarabağ Müharibəsi bədii ədəbiyyatda", "II Qarabağ Müharibəsi – Moskva görüşü – bəyanat", "II Qarabağ Müharibəsi mədəniyyətdə", "II Qarabağ Müharibəsi – Qələbə", "II Qarabağ Müharibəsi – mətbuatda", "II Qarabağ Müharibəsi – şəhidlər, işğaldan azad olunmuş ərazilər" kimi yeni predmetlər açılıb, məqalələr müvafiq sahələr üzrə sistemləşdirilmişdir [1, s. 21-22].

Müharibə dövründə Milli Kitabxanada ingilis dilində hazırlanan virtual sərgilər sosial şəbəkələr vasitəsilə bütün dünyaya yayımlanırdı.

2020-ci lin dekabrında Milli Kitabxanada işğaldan azad olunmuş bölgələrimizin kitabxana direktorlarının iştirakı ilə onlayn konfrans keçirildi.

Məlumdur ki, Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində Qarabağ və onun ətrafında işğal edilmiş rayonlarda yüzlərlə mədəniyyət ocağı, tarixi abidələr, kitabxanalar yerlə yeksan edilmişdir. Düşmən saysız-hesabsız vandalizm aktları törətmiş, nadir kitab nüsxələrini məhv etmişdir. Erməni terrorçuları tərəfindən zəbt olunmuş qədim Azərbaycan torpaqlarında 9 Mərkəzləşdirilmiş Kitabxana Sistemi, 927 kitabxana və orada saxlanılan 4,6 milyon nüsxə kitab talan edilmişdir.

Təkcə Şuşa Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin tərkibində ümumi kitab fondu 200 min nüsxə təşkil edən 32 kitabxana dağıdılmışdır. 1992-ci il mayın 8-də Şuşa rayonunun erməni silahlı qüvvələri tərəfindən işğal olunması nəticəsində bu kitabxanaların hamısı və orada saxlanılan kitablar yandırılmış və məhv edilmişdi.

Ermənistanın hərbi təcavüzü nəticəsində işğal olunmuş Qarabağ və ətraf rayonlarda minlərlə kitabxana, milyonlarla kitab nüsxələri dağıldılmış və yandırılmışdır. Həmin ərazilərdəki kitabxanalarda saxlanılan nadir kitab kolleksiyaları talan edilmiş, Şuşada ilk qiraətxananın yaradıcısı, görkəmli ensiklopedist alim Mir Möhsün Nəvvabın şəxsi kitabxanası, dahi bəstəkar Üzeyir Hacıbəylinin və vokal sənətimizin banisi Bülbülün ev-muzeylərində saxlanılan dəyərli kitabları qarət olunaraq başqa ölkələrə daşınmışdır.

Milli Kitabxana ermənilərin dağıdıb məhv etdikləri həmin kitabxanların fotoşəkillərini Beynəlxalq Kitabxana Təşkilatı olan IFLA-ya göndərmişdir.

Mədəniyyət Nazirliyi ilə Milli Kitabxana birgə 2021-ci ilin yanvar ayında "Qarabağa kitabla gedək" layihəsinə start vermişdir. Erməni işğalından azad olunmuş ərazilərimizdə 1990-cı illərin əvvəllərinədək fəaliyyət göstərmiş kitabxanaların kitab fondlarının bərpası ilə əlaqədar kitabtoplama kampaniyası respublikamızda geniş əks-səda doğurmuşdur. Bir çox ziyalılar, alimlər, təşkilatlar, eləcə də adi vətəndaşlar bu kampaniyaya qoşulmuş, nəticədə Milli Kitabxananın bazasına 70 mindən artıq kitab toplanmışdır.

2021-ci ilin fevral ayında Milli Kitabxana fəaliyyətini virtual rejimdə davam etdirərək yeni layihələr həyata keçirməyə davam etmişdir. "Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 7 may 2021-ci il tarixli Sərəncamına uyğun olaraq Milli Kitabxanada ziyalıların iştirakı ilə "Şuşa İli"nin açılış mərasimi oldu. Bu mərasimdə "Biz səni dirçəldəcəyik, Şuşa" adlı geniş kitab sərgisi təqdim edildi. Milli Kitabxana qısa müddətdə "Şuşa – Azərbaycanın mədəniyyət paytaxtı: biblioqrafiya" adlı kitab hazırlayaraq, Şuşanın işğaldan azad edilməsinin bir illiyi ərəfəsində çap etdirdi. Eyni zamanda Azərbaycanın görkəmli şəxsiyyətləri seriyasından "Xan Şuşinski" adlı biblioqrafiyanı da nəşr etdirməyə nail oldu.

Milli Kitabxananın rəsmi saytında "Qarabağ müharibəsi" adlı elektron məlumat bazası yaradılmışdır. Elektron məlumat bazası bu bölmələrdən ibarətdir: "Ana səhifə", "Qarabağ müharibəsi haqqında", "Dağlıq Qarabağ problemi beynəlxalq təşkilatların müzakirəsində", "İşğal altında olan torpaqlarımız", "Sumqayıt hadisələri", "Xocalı soyqırımı", "Milli qəhrəmanlarımız", "Mülki əhaliyə qarşı törədilmiş cinayətlər".

Burada Ermənistanın Azərbaycana təcavüzünü, Ermənistandan qovulmuş azərbaycanlı qaçqınların, Azərbaycanın işğal olunmuş ərazilərindən məcburi köçkünlərin sayı haqqında real rəqəmlərlə təsdiqlənən ümumi statistika veilmişdir. Qarabağ müharibəsinə dair Azərbaycan, türk, rus, alman, ingilis, fransız dillərində çapdan çıxmış kitabların və dövri mətbuatda dərc olunmuş məqalələrin elektron variantlarına keçidlərin burada yerləşdirilməsi erməni qəsbkarlığının vəhşiliklərini, o cümlədən Xocalı qətliamı qanlı fəsadlarını dünyaya çatdırmaq baxımından olduqca məntiqlidir [2].

Milli Kitabxana Ermənistanın təcavüzkar, işğalçı siyasəti və mahiyyəti haqqında fakt və sübutları əhatə edən kitabları müntəzəm olaraq elektron formatda oxuculara təqdim edir.

Milli Kitabxanada Azərbaycan və ingilis dillərində hazırlanmış və istifadəçilərə virtual rejimdə təqdim edilmiş "Qarabağ Azərbaycandır!", "Qarabağ abidələri", "Qarabağ xalq sənətkarlığı", "Qarabağ geyimləri", "Qarabağ xalçaları" adlı elektron sərgilər maraqla qarşılanmışdır. Məsələn, "Qarabağ abidələri" adlı virtual sərgidə bölgənin qədim yaşayış məskənləri, xəritələri, fotolar, tarixi-memarlıq abidələri və onlar haqqında məlumatlar nümayiş olunur. "Qarabağ - Şuşa həsrəti" adlı elektron məlumat bazasında Qarabağın tarixi, görkəmli şəxsiyyətləri, mədəni irsi, Qarabağ müharibəsi haqqında, Şuşa haqqında sənədlər, kitablar, məqalələr, fotoqalereya və digər sənədlər təqdim olunur [3].

2021-ci ilin sentyabr ayında Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında Anım Gününün təsis edilməsi haqqında" Sərəncamına və Mədəniyyət Nazirliyinin tədbirlər planına uyğun olaraq M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasının əməkdaşları tərəfindən "Qarabağ Azərbaycandır! – 44 günlük II Qarabağ müharibəsi" adlı elektron məlumat bazası hazırlanmışdır. Elektron məlumat bazası "Rəsmi sənədlər", "İkinci Qarabağ müharibəsi Azərbaycan tarixinin ən şərəfli səhifələrindən biridir",





"Düşmən işğalından azad olunmuş şəhər, qəsəbə və kəndlərimizin siyahısı", "II Qarabağ müharibəsi şəhidləri", "Nəşrlər", "II Qarabağ müharibəsinin xatirəsinin əbədiləşdirilməsi", "Müharibə iştirakçılarına verilən orden və medallar", "Erməni terroru", "Videoqalereya" bölmələrindən ibarətdir.

Milli Kitabxana 27 sentyabr Anım Gününün və 8 noyabr Zəfər Gününün qeyd edilməsi ilə bağlı bir sıra tədbirlər təşkil etmişdir. "Şəhidlərimizi ehtiramla yad edirik!"; "8 Noyabr – Zəfər Günü" adlı elektron metodik vəsaitlər; eləcə də "Vətən müharibəsi qəhrəmanları unudulmur" adlı virtual sərgi və "Qarabağ Azərbaycandır! – 44 günlük II Qarabağ müharibəsi" adlı elektron məlumat bazası hazırlanaraq istifadəçilərə təqdim olunmuşdur. Həmçinin Milli Kitabxanada "Vətən müharibəsinin möhtəşəm zəfəri" "Qarabağ dastanı: Otuz ilin həsrəti – 44 günün zəfəri" adlı tədbirlər keçirilmişdir.

Milli Kitabxana 2021-ci il ərzində Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq üçün ölkəmizin daxili və xarici siyasətinə, iqtisadiyyatına, Qarabağ məsələsinə, eləcə də xalqımızın tarixinə, mədəniyyətinə və digər mühüm sahələrə dair 1787 nüsxə ədəbiyyatı dünyanın milli kitabxanalarına, səfirliklərə, universitetlərə göndərmişdir.

İl ərzində Ölkədaxili Kitab Mübadiləsi Fondundan 13572 nüsxə kitab və jurnal Bakı şəhəri, rayon kitabxanalarına və digər müəssisə və təşkilatlara göndərilmişdir. İl ərzində Milli Kitabxanaya xarici ölkə kitabxanalarından 995 nüsxə ədəbiyyat daxil olmuş, eyni zamanda Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə təqdim etmək üçün tariximizə, mədəniyyətimizə, iqtisadiyyatımıza, daxili və xarici siyasətimizə, Dağlıq Qarabağ məsələsinə və digər mühüm sahələrə dair 1787 nüsxə ədəbiyyat dünyanın milli kitabxanalarına, səfirliklərə, universitetlərə göndərilmişdir.

Pandemiya şəraiti ilə əlaqədar kitabxananın oxucular üçün bağlanması səbəbindən istifadəçilərə kitabxana-informasiya xidmətini virtual rejimdə təqdim etmək üçün yaradılan "Onlayn xidmətlər" pəncərəsi ("Biblioqrafik sorğu", "Sənədlərin sifarişi və elektron çatdırılması", "Metodiki xidmət", "Virtual sərgi") cari ildə də aktiv olmuşdur. Cari ildə "Sənədlərin sifarişi və elektron çatdırılması" bölməsi vasitəsilə 147219 istifadəçiyə 170575 resurs göndərilmişdir [4].

Milli Kitabxana müstəqil dövlətimizin suverenliyi və ölkəmizin ərazi bütövlüyü üçün tarixi əhəmiyyət kəsb edən son dövrlərdə müzəffər Ordumuzun Zəfər yürüşünə dəstək olaraq cəmiyyətdə vətənpərvərlik ruhunun yüksəldilməsi, uzun illər işğal altında qalan, dağıdılıb talan edilən tarixi-mədəni irsimizin dünyaya tanıdılması məqsədilə resurslarını maksimum dərəcədə istifadəçilərə yaxınlaşdırmaq üçün ciddi səy göstərir. Bu baxımdan Milli Kitabxanasının Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə birgə layihəsi olan "Milli musiqi xəzinəmizdən (Azərbaycan Milli Kitabxanasının fondundan)" seriyasından "Vətənpərvərlik mahnıları" adlı səs və fortepiano üçün not məcmuəsinin nəşr olunması da diqqətəlayiqdir. Həmin not məcmuəsinə bir çox səs və fortepiano üçün musiqi əsərləri daxil edilmişdir. Bu məcmuələrin bütün

musiqi məktəblərinə və Mərkəzləşdirilmiş Kitabxana Sistemlərinə göndərilməsi təmin edilmişdir [5].

2022-ci il fevralın 24-də Milli Kitabxanada Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində olan kitabxanaların iştirakı ilə Xocalı soyqırımının 30-cu ildönümünə həsr olunmuş "Xocalı soyqırımı – 30" adlı videokonfrans keçirilmişdir.

Milli Kitabxananın direktoru, professor Kərim Tahirov bildirmişdir ki, Xocalı soyqırımı XX əsrin ən böyük faciəsi, bəşəriyyətə, insanlığa qarşı törədilmiş qətliamdır. Azərbaycan xalqına qarşı zaman-zaman belə qətliamlar törədilib. XX əsrin sonunda, sivil bir dünya düzənində belə tükürpədici qətliamın, bəşəriyyətin qanını donduran soyqırımın baş verməsi ağlasığmazdır. Xocalı soyqırımı zamanı 106 qadın, 63 uşaq, 70 qoca olmaqla 613 şəxs məhz azərbaycanlı olduqlarına görə ağlasığmaz vəhşiliklə qətlə yetirilmiş, 487 dinc sakin ağır yaralanmış, 1275 nəfər isə girov götürülmüşdür. O, sonra vurğulamışdır ki, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Azərbaycan ordusu tərəfindən 44 günlük müharibə nəticəsində Xocalı rayonunun da 9 kəndi – Qarabulaq, Moşxmaat, Dəmirçilər, Çanaqçı, Mədətkənd, Sığnaq, Şuşakənd, Muxtar, Daşaltı işğaldan azad olunub. İnanırıq ki, yaxın zamanda Xocalı tam azad olunacaq, orada quruculuq işləri görüləcək.

Milli Kitabxananın direktor müavini Ədibə İsmayılova konfrans iştirakçılarına "Xocalı soyqırımı – 30" (http://anl.az/el/vsb/Xocali_soyqirimi_30/index.htm) adlı virtual sərgini, "Khojaly genocide" (http://anl.az/el/vsb/Khojaly_genocide_30/index.htm) adlı ingilis dilində elektron virtual sərgini, "Xocalı Soyqırımı – 30" adlı elektron daycesti (http://anl.az/down/Xocali_daycest_2022.pdf), "XX əsrin faciəsi – Xocalı soyqırımı" adlı Elektron məlumat bazasını (http://anl.az/el/emb/Xocali-soyqirimi/index.html) təqdim etmişdir. O, qeyd etmişdir ki, elektron məlumat bazası "Rəsmi sənədlər"; "Xocalı rayonu", "Xocalının Milli Qəhrəmanları", "Soyqırım haqqında", "Xocalı şəhidləri", "Şahidlərin söylədikləri", "Ermənilərdən etiraflar", "Ermənilər tərəfindən dağıdılmış abidələr", "Xocalıya ədalət kampaniyası", "Xocalı soyqırımının tanınması", "Xocalı soyqırımı mədəniyyətdə", "Fotoqalereya" və "Videoqalereya" bölmələrindən ibarətdir [6].

2022-ci ilin may ayında Milli Kitabxanada "Azərbaycan bədii fikrinin görkəmli siması – Xan qızı Xurşidbanu Natəvan" adlı elektron məlumat bazası onlayn rejimdə istifadəçilərə təqdim edilmişdir. Xurşidbanu Natəvanın 190 illiyinin qeyd edilməsi haqqında Prezidentin Sərəncamı və Mədəniyyət Nazirliyinin tədbirlər planını əsas tutaraq Milli Kitabxananın əməkdaşları tərəfindən "Azərbaycan bədii fikrinin görkəmli siması – Xan qızı Xurşidbanu Natəvan" adlı Elektron məlumat bazası hazırlanıb. Elektron məlumat bazası "Prezident İlham Əliyevin Xan qızının xatirəsinin əbədiləşdirilməsinə diqqəti"; "Həyat və yaradıcılığının əsas tarixləri"; "Görkəmli şəxsiyyətlər Xurşidbanu Natəvan haqqında"; "Əsərləri"; "Haqqında"; "Xatirəsinin əbədiləşdirilməsi"; "Filmoqrafiya"; "Fotoqalereya" və "Videoqalereya" bölmələrindən ibarətdir [7].





2022-ci ilin iyun ayında Milli Kitabxanada "Şuşa əl işləri" adlı virtual sərgi onlayn rejimdə istifadəçilərə təqdim olunmuşdur. Oxuculara müraciətdə bildirilir ki, 1977-ci ildə Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə "Şuşa şəhərinin tarixi hissəsini tarix-memarlıq qoruğu elan etmək haqqında" qərar qəbul edilmişdir. Bunun nəticəsində Şuşada abidələrin qorunması, görkəmli mədəniyyət və incəsənət xadimlərinin xatirələsnin əbədiləşdirilməsi istiqamətində mühüm işlər görülmüşdür.

Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən 2022-ci ilin "Şuşa İli" elan edilməsi ilə əlaqədar Milli Kitabxananın əməkdaşları tərəfindən "Şuşa əl işləri" adlı virtual sərgi hazırlanmışdır. Təqdim olunan virtual sərgidə Azərbaycanın mədəniyyət mərkəzi olan Şuşa şəhərində XIX əsr tikmə nümunələri, onların təsnifatı, əyani-vizual görüntüləri və qısa tarixi öz əksini tapmışdır [8].

Bununla yanaşı həmin dövrdə Milli Kitabxanada "Şuşa zərgərlik məmulatları" adlı virtual sərgi onlayn rejimdə istifadəçilərə təqdim olunmuşdur. Sərginin təqdimat yazısında qeyd olunduğu kimi, Ulu Öndər Heydər Əliyev Şuşanın Azərbaycan üçün nə dərəcədə əhəmiyyətli olduğunu bildirərək demişdir! "Şuşa Azərbaycanın ən əziz və böyük tarixi olan bir guşəsidir. Şuşanı yaradanlar, Şuşa şəhərini quranlar, Şuşa qalasını tikənlər Azərbaycan torpağının sahibləri olublar və Qarabağda Azərbaycan torpağının daim qorunması, saxlanması üçün Şuşa şəhərini, qalasını yaradıblar. Bu, Azərbaycan xalqının, əcdadlarımızın yaratdığı böyük abidədir, təkcə şəhər deyil, böyük bir tarixi abidədir". Təqdim olunan virtual sərgidə Azərbaycanın mədəniyyət mərkəzi olan Şuşa şəhərinin sənətkarlarının hazırladığı zərgərlik nümunələri, onların təsnifatı, haqqında məlumatlar, əyani-vizual görüntüləri və qısa tarixi öz əksini tapmışdır (9).

Beləliklə, son dövrlərdə Vətən müharibəsi – Qarabağ mövzusu Azərbaycan Milli Kitabxanasının fəaliyyətində aparıcı yer tutmuş, kitabxana əməkdaşları bu istiqamətdə çoxsaylı tədbirlər keçirmiş, elektron məlumat bazaları hazırlamışlar. Bu sahədə iş yenə də uğurla davam etdirilir.

## ƏDƏBİYYAT

1. *İsmayılova, Ədibə. Azərbaycan Milli Kitabxanasında koronavirus (COVİD-19) pandemiyası şəraitində elektron informasiya xidmətinin təşkili). – Bakı, 2021. - 232 s.*
2. *http://anl.az/el/emb/qarabaq/index.htm*
3. *http://anl.az/el/vsb/Qarabag_abideleri/index.htm*
4. *http://www.millikitabxana.az/page/years*
5. *http://anl.az/down/vetenperverlik.pdf*
6. *https://www.millikitabxana.az/news/xocali-tedbir-22*
7. *http://anl.az/el/emb/X.Natevan/index.html*
8. *http://anl.az/el/vsb/Susa_el_isleri/index.htm*
9. *http://anl.az/el/vsb/Susa_zergerlik_memulatlari/index.htm*